# Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında Əsasnamənin təsdiq edilməsi haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında Əsasnamə təsdiq edilsin.

2. Bu Qanun imzalandığı andan qüvvəyə minir.

Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında

***Azərbaycan Respublikasının prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 10 yanvar 1995-ci il***

***№ 947***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (8 aprel 1995-ci il, № 65) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı»nda dərc edilmişdir (1995-ci il, № 8, maddə 158) («VneshExpertService» LLC).***

***4 noyabr 1997-ci il tarixli, 388-IQD nömrəli; 5 mart 2004-cü il tarixli, 598-IIQD nömrəli; 21 dekabr 2010-cu il tarixli, 38-IVQD nömrəli; 17 may 2011-ci il tarixli, 111-IVQD nömrəli Qanunlara əsasən əlavələr və dəyişikliklərlə ( «VneshExpertService» LLC).***

---

# Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında Əsasnamə

Bu Əsasnamə hərbi qulluqçuların və toplanışa çağırılmış hərbi vəzifəlilərin dövlətə vurduqları ziyana görə maddi məsuliyyətinin əsaslarını, vurulan ziyanın miqdarının müəyyən edilməsinin və ödənilməsinin qaydalarını tənzimləyir.

## I. Ümumi müddəalar

1. Hərbi qulluqçular — Azərbaycan Respublikasının Silahlı qüvvələrində, Sərhəd Qoşunlarında, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış başqa qoşun birləşmələrində hərbi xidmətdə olan zabit heyəti, gizirlər, miçmanlar, müddətli və müddətdən artıq hərbi xidmətdə olan əsgərlər, matroslar, serjantlar, çavuşlar, toplanışa çağırılmış hərbi vəzifəlilər, hərbi *təhsil* müəssisələrinin kursantları əsgəri nizamnamələrlə, əmrlərlə və digər aktlarla nəzərdə tutulan vəzifə bor clarını yerinə yetirərkən dövlətə vurduqları ziyana görə təqsirli olduqda bu Əsasnaməyə uyğun olaraq maddi məsuliyyət daşıyırlar.

Vəzifə borclarını yerinə yetirmədikləri zaman vurduqları ziyana görə bu şəxslər ümummülki qaydada maddi məsuliyyət daşıyırlar.

2. *Bu Əsasnamənin 7–1 maddəsi və Azərbaycan Respublikasının digər qanunvericiliyi ilə nəzərdə tutulmuş hallardan başqa dövlətə vurulmuş həqiqi ziyan ödənilməlidir.*

Hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər komandirin (rəisin) əmrini vicdanla yerinə yetirmələri və ya konkret şəraitdə haqlı xidməti risk nəticəsində, yaxud hüquqi hərəkətlər nəticəsində dövlətə vurduqları ziyana görə maddi məsuliyyət daşımırlar.

3. Hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər tərəfindən dövlətə vurulmuş ziyan onların həmin ziyana səbəb olmuş hərəkətlərinə (hərəkətsizliyinə) görə intizam və yaxud cinayət məsuliyyətinə cəlb olunub-olunmamasından asılı olmayaraq ödənilir.

Dövlətə ziyan vurmuş şəxs cinayət məsuliyyətinə cəlb edildiyi halda komandir (rəis) bu şəxsə ödənilməmiş ziyanın bütün miqdarı həcmində mülki iddia verməlidir.

4. Hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər dövlətə vurduqları ziyanı könüllü olaraq bütünlüklə və yaxud qismən ödəyə bilərlər.

5. Bu Əsasnamənin dəqiq və eyni cür yerinə yetirilməsinə nəzarət Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikasının Baş prokuroru və ona tabe olan hərbi prokurorlar tərəfindən həyata keçirilir.

## II. Maddi məsuliyyət

6. Hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər əsgəri nizamnamələrlə, əmrlərlə və digər aktlarla nəzərdə tutulmuş xidməti vəzifələrini laqeyd yerinə yetirmələri nəticəsində vurduqları ziyana görə vurulmuş ziyanın miqdarında, lakin bu Əsasnamədə və Azərbaycan Respublikasının qanunvericiliyində maddi məsuliyyətin başqa hüdudlarını nəzərdə tutan hallardan başqa digər hallarda – müddətli hərbi xidmətdə olan hərbi qulluqçular və kursantlar pul təminatının iki aylıq, toplanışlara çağırılmış hərbi vəzifəlilər gündəlik xərcin aylıq, qalan hərbi qulluqçular isə pul təminatının aylıq məbləğindən artıq olmayaraq maddi məsuliyyət daşıyırlar.

Bu maddədə nəzərdə tutulmuş hallarda hərbi inşaat dəstələrinin (hissələrinin) hərbi inşaatçıları orta aylıq maaşlarından artıq olmayaraq vurduqları zərər miqdarında maddi məsuliyyət daşıyırlar.

7. Aşağıdakı hallarda hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər öz təqsirləri ucundan dövlətə vurduqları zərərin tam miqdarında maddi məsuliyyət daşıyırlar:

- hərbi əmlakın qəsdən məhv edilməsi, zədələnməsi, korlanması, oğurlanması, qanunsuz sərf edilməsi və ya qəsdən edilən başqa hərəkətlərlə zərər vurulması, bu hərəkətlərin cinayət məsuliyyətinə səbəb olub-olmamasından asılı olmayaraq;
- naryad və başqa sənədlərdə faktiki görülməmiş işlərin artırılması, hesabat rəqəmlərinin təhrif edilməsi və dövlətin başqa şəkildə aldadılması;
- hesabatla verilmiş hərbi əmlakın əskik gəlməsi, eləcə də məhv edilməsi və ya orlanması;
- zərərin sərxoş vəziyyətdə olan şəxs tərəfindən vurulması;
- zərərin cinayət məsuliyyətinə səbəb olan hərəkətlərlə vurulması.

*7-1. Hərbi qulluqçular və toplanışa çağırılan hərbi vəzifəlilər siyahısı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanıtərəfindən təsdiq edilmiş hərbi əmlakın ayrı-ayrı növlərinin oğurluğu, israfçılığı və ya çatışmazlığı nəticəsində dəymiş ziyana görə bu əmlakın dəyərinin bir neçə misli həddində maddi məsuliyyət daşıyırlar. Vurulmuş ziyana görə ödəniş həddi Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada təyin olunur.*

8. Hərbi əmlak dedikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, Sərhəd Qoşunlarının, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış digər qoşun birləşmə lərinin hərbi hissə, müəssisə, hərbi məktəb, idarə, təşkilatların sərəncamında olan silahların bütün növləri, döyüş texnikası və başqa texnika, döyüş sursatı, yanacaq, ərzaq, əşya, mühəndis, kimyəvi və ev əmlakı, başqa maddi və pul vəsaitləri başa düşülür.

9. Komandirlər (rəislər) hərbi əmlakın müəyyən olunmuş uçot, saxlanma, istifadə edilmə, sərf edilmə, daşınma qaydalarını düzgün olmayan sərəncamlarla pozduqda, hərbi əmlakın oğurluğunun, məhv edilməsinin, zədələnməsinin, korlanmasının qarşısının alınması, dövlətə vurulmuş zərərin təqsirli şəxslər tərəfindən ödənilməsi üçün lazımi tədbirlər görmədikdə onlara tabe olan şəxslərin dövlətə vurduqları zərərə görə aylıq pul təminatlarından artıq olmayaraq vurulmuş zərər miqdarında maddi məsuliyyətə cəlb olunu rlar.

10. Gizir, miçman, müddətdən artıq xidmətdə olan hərbi qulluqçular və zabit heyəti öz təqsirləri ucundan vaqon, gəmi və avtomobillərin işsiz dayanması ilə vurulmuş zərərə görə aylıq pul təm (natlarından artıq olmayaraq vurulmuş zərər miqdarında maddi məsuliyyət daşıyırlar.

11. Hərbi hissə, müəssisə, hərbi məktəb, idarə və təşkilatların komandirləri (rəisləri) fəhlə və qulluqçunu qanunsuz olaraq işdən azad etməkdə və ya başqa işə keçirməkdə təqsirli olarlarsa, məcburiyyət üzündən işburaxma və ya azmaaşlı işin yerinə yetirilməsi haqqının ödənilməsi ilə vurulan zərəri üç aylıq pul təminatındE n çox olmayan məbləğdə tam ödəyirlər.

12. Hərbi qulluqçunun və toplanışa çağırılmış hərbi vəzifəlilərin təqsiri ilə üçüncü şəxsə vurulmuş zərər qüvvədə olan qanunvericiliyə müvafiq olaraq hərbi hissə, müəssisə, hərbi məkt əb, idarə və təşkilatlar tərəfindən ödənildikdə onlar həmin zərəri bu Əsasnamədə nəzərdə tutulmuş qaydada ödəməlidirlər.

## *III. Zərərin miqdarının myəyyən edilməsi və onu ödəmək qaydası*

13. Dövlətə dəymiş zərərin miqdarı faktiki itkiyə görə uçot məlumatları əsasında pərakəndə satış qiymətləri ilə müəyyən edilir.

Topdansatış qiymətləri pərakəndə satış qiymətlərindən yuxarı olan hallarda zərər topdansatış qiymətləri ilə müəyyən edilir. *Müqavilələrə uyğun olaraq alınmış hərbi əmlaka vurulmuş ziyanın miqdarı müqavilə qiymətləri ilə müəyyən edilir.*

Ödənilməli olan zərərin miqdarı müəyyən olunmuş normalara görə hərbi əmlakın köhnəlməsi nəzərə alınmaqla hesablanır.

Tamah məqsədilə törədilmiş cinayətlə vurulan zərər istisna olmaqla, zərərin vurulduğu şərait, təqsirkar şəxsin təqsirinin dərəcəsi və maddi vəziyyəti nəzərə alınmaqla müstəsna hallarda yu xarı komandirin (rəisin) icazəsi ilə hərbi hissə, müəssisə, hərbi məktəb, idarə və təşkilatların komandiri (rəisi) tərəfindən, müvafiq hallarda isə məhkəmə tərəfindən zərərin ödənilməsi üçün tutulan məbləğ azaldıla bilər.

14. Zərər aşkar edildikdə hərbi hissə, müəssisə, hərbi məktəb, idarə və təşkilatların komandirləri (rəisləri) zərərin başvermə səbəblərinin, onun miqdarının və təqsirli şəxslərin müəyyən edilməsi üçün dərhal inzibati təhqiqat təyin edirlər. Təhqiqat bir ay müddətində başa çatmalıdır. Lazımi hallarda yuxarı komandir (rəis) bu müddəti bir aydan artıq olmayaraq uzada bilər.

Zərərin başvermə səbəbləri, miqdarı və təqsirli şəxslər təftiş, yoxlama, təhqiqat, istintaq və ya məhkəmə tərəfindən müəyyən edildikdə inzibati təhqiqat aparılmaya bilər.

*Təhqiqat zamanı cinayət əlamətləri aşkar edilərsə, hərbi hissənin, müəssisənin, hərbi təhsil müəssisəsinin, təşkilatın komandiri (rəisi) cinayət-prosessual qanunvericiliyində nəzərdə tutulan tədbirləri görməlidir.*

15. Zərər, onun miqdarı və təqsirli şəxslər müəyyən edildikdə hərbi hissənin, müəssisənin, hərbi məktəbin, idarənin və təşkilatın komandiri (rəisi), zəruri hallarda isə yuxarı komandir (rəis) inzibati təhqiqatın qurtardığı gündən və ya bu Əsasnamənin 14-cü maddəsinin ikinci hissəsində göstərilmiş materialların daxil olmasından bir ay müddətində təqsirli hərbi qulluqçudan və ya toplanışa çağırılmış hərbi vəzifəlidən müvafiq məbləğin tutulm ası haqqında əmr verir.

16. Zərərin bir neçə şəxs tərəfindən vurulduğu hallarda hər bir şəxsin vurduğu zərər, konkret şərait və təqsirinin dərəcəsindən asılı olaraq ondan tutulacaq məbləğin dəqiq miqdarı əmrdə göstərilir.

17. Zərərin tutulması haqqındakı əmr təqsirli şəxsə imza ilə elan edilir. Əmrdən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrində müəyyən edilmiş qaydada yuxarı komandirə (rəisə) şikayət verilə bilər. Yuxarı komandir (rəis) vurulmuş zərərə görə məsuliyyətin və tutulacaq məbləğin miqdarının düzgün təyin edilib-edilmədiyini yoxlayır. Əmrdən şikayət verilərkən pul tutulma dayandırılmır. Əmr ləğv olunduqda tutulmuş məbləğ qaytarılır.

18. Əmrə görə zərərin ödənilməsi üçün hər ay tutulan məbləğ aylıq pul təminatının iyirmi faizi, hərbi əmlakın israfı və oğurlanması ilə vurulmuş zərərin ödənilməsi hallarında isə əlli faizi miq darında tutulur.

Əgər pul təminatından qanunla nəzərdə tutulmuş başqa məqsədlər üçün də pul tutulursa, tutulan pulun ümumi miqdarı aylıq pul təminatının əlli faizindən artıq olmamalıdır. Bu hallarda pul tutulmanın qaydası və növbəsi mülki prosessual qanunvericiliyə görə müəyyən edilir.

19. Əgər maddi məsuliyyətə cəlb olunmuş hərbi qulluqçu və ya toplanışa çağırılmış hərbi vəzifəli dövlətə vurduğu zərəri ehtiyata və ya istefaya buraxıldığı və ya toplanışın qurtardığı günədək ödəməyibsə, onun borcu yaşadığı yerin *icra məmuru* tə əfindən mübahisəsiz qaydada, buraxılmış hərbi qulluqçunun və ya toplanışa çağırılmış hərbi vəzifəlinin yaşayış (iş) yerinə hərbi hissə, müəssisə, hərbi məktəb, idarə və təşkilat komandirinin (rəisinin) göndərdiyi notariat işlərini yerinə yetirən orqanların icra qeydi əsasında tutulur.

20. Təqsirli şəxsdən tutulması mümkün olan məbləğdən artıq zərərin miqdarı komandirin (rəisin) qərarı ilə ona verilmiş hüquqlar həddində dövlət hesabına keçirilir.

---

*© VneshExpertService LLC*